# Məcburi köçkünlərin yüksək təhsil alması üçün hərtərəfli şərait yaradılıb

**Doğma ocaqlarından didərgin salınmış soydaşlarımızın problemləri Azərbaycan dövlətinin gündəlik qayğısına çevrilmişdir. Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət göstərmiş, onların sosial vəziyyətinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilməsini təmin etmişdir. Ümummilli lider dünyanın müxtəlif dövlət başçıları ilə keçirdiyi çoxsaylı görüşlərdə, beynəlxalq və yerli qurumların tədbirlərində mütləq şəkildə bu mövzuya toxunaraq, onu ölkəmizin bir nömrəli problemi adlandırırdı. Ulu öndərin ən böyük arzusu zəbt olunmuş torpaqlarımızın işğaldan azad edilməsi idi. O, bunun üçün var qüvvəsi ilə çalışırdı.**



Bu gün ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərlə bağlı keçirilən müxtəlif tədbirlərdə, o cümlədən yeni salınmış şəhərciklərin və məhəllələrin böyük əksəriyyətinin açılışında şəxsən iştirak edir, onların vəziyyəti ilə yerindəcə tanış olur. Cənab Prezidentin qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi ilə bağlı dövlət proqramı və ona 2 əlavənin təsdiq edilməsi ilə bağlı imzaladığı sərəncamlar məcburi köçkünlərin təhsil problemlərinin həllinə də əhəmiyyətli təsir göstərmişdir. Yeni salınmış qəsəbələrdə və orada tikilmiş məktəblərin açılışlarında cənab Prezidentin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın şəxsən iştirak etməsi və məcburi köçkünlərlə səmimi söhbətləri soydaşlarımızın həyatında unudulmaz, xoş xatirələrə çevrilmişdir.

Qubadlılılar da cənab Prezidentin məcburi köçkünlərə göstərdiyi qayğı və diqqəti yüksək qiymətləndirir, onların həyat şəraitinin yaxşılaşdırılmasına göstərdiyi qayğıdan məmnunluqla danışırlar. Qubadlının məcburi köçkün şagirdləri 32 məktəbdə təhsil alırlar. Onlardan 20-si yeni inşa edilmiş məktəblərdir. Bu məktəblərin hər biri müasir avadanlıqla təchiz olunmuşdur. Həmin təhsil müəssisələri Sumqayıtda və Bakıda yerləşir.

Son vaxtlar yeni inşa edilən məktəblərin sayı artmaqdadır. Ramana qəsəbəsində tikilmiş Qubadlı rayon Xanlıq orta məktəbinin açılışında Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəxsən iştirak etmişdir. Sumqayıt stansiyasında məcburi köçkünlər üçün salınmış şəhərcikdə Qubadlı rayon Hal kənd tam orta məktəbi də yeni istifadəyə verilmişdir. Bu il "Son zəng" tədbirində təhsil naziri Ceyhun Bayramov da həmin məktəbdə olmuşdur.



Nazir bu münasibətlə keçirilən tədbirdə məzunlara müraciətlə dedi: "Əziz məzunlar, 11 il öncə kiçik yaşlı uşaqlar olaraq məktəbə qədəm qoydunuz. Bu illər ərzində ən sadə biliklərdən, davranış qaydalarından tutmuş ayrı-ayrı fənlərə qədər müxtəlif elm və biliklərə yiyələndiniz. Müasir dünyada bilmədiyiniz, önəmli xarici dilləri öyrəndiniz. Bu gün siz artıq müstəqil həyata atılırsınız. Hədəfimiz odur ki, savadlı olmağınızla bərabər, Vətən qarşısında məsuliyyətinizi dərk edən hərtərəfli şəxslər kimi formalaşasınız. Belə olarsa, uğurlarınız çox olacaq. Üstəlik, valideynləriniz üçün gözəl övladlar, müəllimləriniz üçün nümunəvi şəxslər olacaqsınız və onların çəkdiyi əziyyəti cəmiyyətə qaytaracaqsınız".

Göründüyü kimi, məcburi köçkünlərin təhsil problemi həm dövlət başçısının, həm Birinci vitse-prezidentin, həm də təhsil nazirinin diqqət mərkəzindədir. Rayon icra hakimiyyəti və təhsil şöbəsi də problemlərimizlə mütəmadi olaraq maraqlanırlar. Bunun nəticəsidir ki, ötən tədris ilində rayonun ümumtəhsil məktəblərinin XI siniflərini bitirən 442 məzunun 297 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Onlardan 42 nəfəri 500-600 arası, 12 nəfəri isə 600-700 arası bal toplamışdır. Bununla yanaşı, XI sinif məzunlarından 36 nəfəri orta ixtisas məktəblərinə qəbul olmuşdur. Rayonda 2 məktəb universitetlərə qəbulun nəticələrinə görə 100 faiz nəticə göstərmişdir. Belə ki, Çaytumas məktəb-liseyinin 34, Xocahan kənd tam orta məktəbinin 16 məzununun hamısı tələbə adını qazanmışdır.

B.Əsgərov adına Xələc kənd tam orta məktəbinin kollektivi olaraq biz də bu diqqət və qayğını həmişə hiss edirik. Bu qayğıya cavab olaraq biz də təhsilin keyfiyyətinin artırılması üçün səy göstəririk. Məktəbimizdə 658 şagirdin təhsili ilə 44 müəllim məşğul olur. Ötən tədris ilində 20 şagird məktəbi bitirib, onlardan 17-si ali məktəbə sənəd verib və 14-ü tələbə adını alıb. Məzunlarımızdan 3 nəfər 500-600 bal arası, 1 nəfər 600-dən yuxarı bal toplamışdır. Ali təhsil alan məzunlarımız arasında iki Prezident təqaüdçümüz var.

Çalışırıq ki, şagirdlərimiz savadlı, bilikli böyüsünlər və gələcəkdə ölkəmizdə gedən nəhəng quruculuq işlərində fəal iştirak etsinlər.

***Araz ƏLİYEV,***
***Qubadlı rayon Xələc kənd tam orta məktəbinin direktoru***